The main determinants of migration

Akifa Aghayarova
Senior research fellow, Institute of Economics of ANAS, Department of Demography and problems of labor reproduction. Azerbaijan.
E-mail: aqayarova.akifa@yandex.ru
https://orcid.org/0000-0003-4714-5330

Abstract. The article conducts a comparative analysis of the main theories studying the migration process from an economic point of view and the determinants on which these theories are based. According to the neoclassical theory of migration, the main determinants are the number of migrants, the requirements of the legislation on the minimum wage, as well as the requirements of the legislation on labor migration in the country. The new economic theory of labor migration takes the difference between wage levels as a determinant.
Keywords: migration, migration flow, migrants, determinants of migration.

JEL O15, R23; **UDC** 331.556
To cite this article: Agayarova A. (2021). The main determinants of migration. *Economic Growth and Social Welfare*, Issue II, pp. 91-98.
Article history: Received – 18.02.2021; Accepted – 21.06.2021.

Miqrasiyanın əsas determinantları

Akifə Ağayarova
Böyük elmi işçi AMEA İqtisadiyyat İnstitutu, "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri" şöbəsi. Azərbaycan.
E-mail: aqayarova.akifa@yandex.ru
https://orcid.org/0000-0003-4714-5330

Annotasiya. Məqalədə miqrasiya prosesini iqtisadi nöqteyi-nəzərindən öyrənən əsas nəzəriyyələr və bu nəzəriyyələrin əsaslandığı determinantların müqayisəli təhlili aparılır. Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, əsas determinantlar kimi miqrantların sayı, minimum əmək haqqı ilə bağlı qanunvericiliyin tələbləri, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri götürülə bilər. Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi determinant olaraq əmək haqqı səviyyələri arasındakı fərqi əsas götürür.
Açar sözlər: miqrasiya, miqrasiya axını, miqrantlar, miqrasiyanın determinantları.

JEL O15, R23; **UDC** 331.556
Məqaləyə istinad: Ağayarova A. (2021). Miqrasiyanın əsas determinantları. *İqtisadi Artım və İctimai Rifah*, № 2, səh. 91-98.
Məqalə tarixçəsi: göndərilib – 18.02.2021; qəbul edilib – 21.06.2021

Giriş / *Introduction*

Ölkələrarası miqrasiya ölkələrarası ticarət kimi qarşısı alınması mümkün olmayan və müasir dövrə xas olan, iqtisadi, siyasi, sosial və sair təsirləri olan hadisədir. Hər bir ölkə miqrasiyanın tənzimlənməsi yolu ilə onun mənfi təsirlərini azaltmağa və müsbət təsirlərini inkişaf etdirməyə çalışır. Belə tədbirlərin həyata keçirilməsi miqrasiyanın əsas determinantlarının müəyyən edilməsi və bu determinantların ayrı-ayrılıqda və ya sistem olaraq tənzimlənməsi yolu ilə reallaşır. Odur ki, bu tədqiqatda biz bir neçə sualın cavabını axtarmağa çalışacağıq. Birinci sual ondan ibarətdir ki, iqtisadi ədəbiyyatda miqrasiya, bir proses olaraq, nəzəri cəhətdən necə xarakterizə olunmuşdur, yəni iqtisadi ədəbiyyatda miqrasiya nəzəriyyələri bir-birindən necə fərqləndirilir? İkinci sual ondan ibarətdir ki, iqtisadi ədəbiyyatda beynəlxalq miqrasiyanın hansı determinantları fərqləndirilir və miqrasiya nəzəriyyələrində bu determinantlar arasında fərqlər varmı? Üçüncü sual ondan ibarətdir ki, miqrasiyanın tənzimlənməsinin mahiyyəti nədən ibarətdir? Nəhayət dördüncü sual miqrasiyanın tənzimlənməsinin miqrasiyanın determinantlarına necə təsir göstərməsi ilə bağlıdır.

Qeyd edək ki, bu sualların hər biri iqtisadi ədəbiyyatda geniş müzakirə edilir, lakin hər biri üzrə birmənalı qəbul edilən cavablar yoxdur. Bunun əsas səbəbi təkçə miqrasiya prosesi və onun determinantları ilə bağlı statistik məlumatların məhdudluğu ilə bağlı deyil, həm də nəzəri modellərin hələ də mükəmməl olmaması ilə bağlıdır. Digər tərəfdən, miqrasiya proseslərinin tədqiqatında mühüm problem həm də miqrasiya və onun determinantları ilə bağlı dövlət siyasəti ilə miqrasiyanın bütövlükdə və ya onun hər hansı aspektinin akademik və nəzəri tədqiqatı arasındakı əlaqənin zəif olmasıdır. Başqa bir problem miqrasiyanın iqtisadi aspektləri ilə digər

aspektlər, məsələn, siyasi, sosial, psixoloji, demoqrafik və sair aspektlər arasındakı əlaqənin nəzəri tədqiqatlara daha az cəlb edilməsi və ya belə tədqiqatlar üçün müvafiq metodologiyanın olmamasıdır. Bunları nəzərə alaraq, biz də yalnız bu suallara olan mövcud cavabların müqayisəli təhlilini aparmağa cəhd edəcəyik.

Əsas hissə / *Main part*

Ədəbiyyatların təhlili

Miqrasiya prosesi insan cəmiyyəti yaranandan mövcud olsa da, elmi araşdırmaların predmeti olaraq, nəzəri səviyyədə tədqiqi qədim tarixə malik deyil. Bu günə qədər beynəlxalq miqrasiya proseslərinin birmənalı qəbul edilən nəzəriyyəsi mövcud deyil. Lakin miqrasiyanın bu və ya digər aspektlərini prioritet hesab edən müxtəlif nəzəriyyələr işlənmişdir. Bu nəzəriyyələrdən biri Miqrasiyanın Ravenşteyn Qanunudur. Görkəmli ingilis çoğrafiyaçısı E.Ravenşteyn miqrasiya ilə bağlı elmi ədəbiyyatda “Miqrasiyanın Ravenşteyn Qanunu” kimi tanınan 11 tezisi 1885-ci ildə özünün Londonun Statistik Cəmiyyəti jurnalında dərc edilən “Miqrasiyanın qanunları” məqaləsində verir. O, böyük insan kütləsinin bir yerdən digər yerə köç etməsinin səbəblərini elmi cəhətdən əsaslandırmağa çalışmışdır.

Qeyd edək ki, Ravenşteyn qanunlarının əsasında “səpələnmə” və “hopdurma” və ya “udma” konsepsiyası dayanır. O ölkədən insanlar gedirlər ki, o ölkədə iqtisadiyyat zəifdir və insanların həyat şəraiti digər ölkələrlə müqayisədə pisdir. Bu halda “səpələyənməyə” meyilli və “səpələnmə” imkanında olan insanlar daha yüksək həyat şəraitinə malik ölkələrə miqrasiya edirlər. Miqrantları cəlb edən və ya onları “hopduran” və ya “udan” ölkələrdə iqtisadi inkişaf yüksək olur və bu ölkələrin miqrantların gəlişinə əlavə ehtiyacları yaranır. Ravenşteyn qanunlarının ikinci mühüm cəhəti ondan ibarətdir ki, miqrasiya prosesləri məsafədən asılıdır və məsafə çoxaldıqca miqrasiya azalır.

Miqrasiyanın Ravenşteyn Qanunlarının 1-ci tezisində deyilir ki, ərazilər arasında əhali qeyri-bərabər paylandığından, vaxtaşırı yenidən paylanma prosesi gedir. Məhz miqrasiya nəticəsində əhalinin yenidən paylanması müxtəlif regionların iqtisadi inkişafına təkan verir. Əgər dövlət regionlar üzrə əhalinin paylanmasına səmərəli nəzarət edərsə, bu əmək məhsuldarlığının artmasına və regionların sürətli inkişafına təkan verə bilər.

İkincisi, regionlar iqtisadi xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Hər bir regionun digərlərinə nisbətən müqayisəli və ya mütləq üstünlüyü ola bilər. Regionun coğrafi mövqeyi, onun təbii resurslarla zənginliyi, iqlim üstünlüyü və sair mövcud ola bilər.

Ravenşteyn qanunlarına görə miqrasiya prosesi əsasən qısa məsafələr üzrə baş verir. Bu iddia bir qədər mübahisəli görünə bilər. Lakin nəzərə almaq lazımdılr ki, istənilən böyük məsafənin qət edilməsi əvvəlcə kiçik məsafələrin qət edilməsindən başlayır. Tarixən istənilən böyük miqrasiya proseslərində uzaq məsafələr üzrə miqrasiyalar əvvəlcə kiçik məsafələr üzrə miqrasiyalar kimi yaranıb. Sonra isə bu yerdəyişmələr zaman-zaman uzaq məsafələrə çevrilib. Nəqliyyat sisteminin yüksək inkişaf etmədiyi qədim dövrlərdə və ya orta əsrlərdə Yaxın Şərqdən Avropa ölkələrinə böyük insan köçü heç də birbaşa olmamışdır. Hətta nəqliyyat sisteminin inkişaf etdiyi XX və ya XXI əsrin əvvəllərində Yaxın Şərqdən Avropaya miqrasiya zamanı qət edilən məsafələr qısa məsafələr nəticəsində reallaşır.

Ravenşteyn qanunlarına əsasən, miqrasiya mərhələli şəkildə baş verir. Bu prosesi demək olar ki, həm hər bir ölkənin timsalında, həm də qlobal səviyyədə müşahidə etmək mümkündür. Belə ki, hər bir ölkənin daxilində baş verən miqrasiya prosesində kiçik yaşayış məskənlərindən, xüsusilə, kəndlərdən şəhərlərə koç mərhələli olur. Hətta asanlıqla müşahidə etmək olar ki, bir neçə onilliklər ərzində hər hansı kəndin əhalisinin sayında ciddi dəyişikliklər baş verməyib. Gənclərin hər il ali təhsil almaq üçün böyük şəhərlərə getməsi və ya ölüm halları nəticəsində əhalinin azalan hissəsi yeni doğulanlarla kompensasiya olunur.

Ravenşteyn qanununa əsasən miqrasiya prosesləri nəticəsində hər hansı regionda əhali

artımı bu ərazilərdə əks prosesin, yəni əhalinin digər qruplarının ərazini tərk etməsinə səbəb olur. Tarixən belə proseslər hər hansı ərazidə yerli əhalinin miqrantların təzyiqi nəticəsində öz yerlərini dəyişməsinə səbəb olub. Bu proses bəzi hallarda hiss edilməyəcək dərəcədə yavaş gedən proses olur.

Miqrantlar adətən uzun məsafələri yalnız o zaman qət edirlər ki, iqtisadi cəhətdən daha inkişaf etmiş regionlara və ya böyük şəhərlərə gəlsinlər. İnkişaf etmiş regionlara miqrasiya etməklə insanlar öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq məqsədi daşıyırlar. Şübhəsiz ki, bütün dövrlərdə böyük şəhərlərin daha geniş imkanlar yaratması stereotipi indi də mövcuddur. Böyük şəhərərdə işlə təminat imkanı daha realdır.

Ravenşteyn qanunlarına əsasən, şəhər əhalisinin miqrasiya etmək arzusu, kənd əhalisinə nisbətən daha azdır. Heç bir zorakılıq halları, məsələn, müharibə və terror təhlükəsiz olmadığı hallarda şəhər əhalisinin kəndlərə koç etməsi demək olar ki, baş vermir. Əksinə kənd əhalisinin şəhərlərə axını demək olar ki, bütün ölkələrdə arasıksilmədən baş verən hadisədir. Eyni ilə də inkişaf etməkdə olan, az gəlirli ölkələrdən daha yüksək gəlirli ölkələrə, siyasi cəhətdən gərgin ölkələrdən daha sabit siyasi sistemi olan ölkələrə əhalinin yerdəyişməsi baş verir.

Ravenşteyn qanunlarına əsasən ölkədaxili miqrasiya proseslərində qadınlar kişilərə nisbətən daha mobil, uzun məsafələrə yerdəyişmə zamanı isə kişilər daha mobil olur. Əlbəttə bu qanunun qadınlara aid olan hissəsinin tətbiqi ölkədən ölkəyə dəyişə bilər və universal hesab edilə bilməz. Belə ki, islam ölkələrində nə XIX əsrdə, nə də XX və XXI əsrdə ölkədaxili miqrasiyada qadınlar mobil olmayıb. Qadınların ailənin olduğu yerdə yaşaması və ailə qulluq etməsi halları daha üstünlük təşkil edib.

Ravenşteyn qanununa əsasən, böyük şəhərlər məhz miqrasiya nəticəsində böyüyürlər. Belə böyümə öz növbəsində yeni miqrasiya axınını cəlb edir. Çünki şəhər böyüdükcə onun iqtisadi imkanları da genişlənir, ora daha çox kapital yönəlir və sənaye inkişaf edir. Sənaye inkişaf etdikcə xidmət sektoru da genişlənir və sair.

Ravenşteyn qanunlarına əsasən miqrasiyanın əsasında regionlararası, ölkələrarası iqtisadi inkişaf fərqləri dayanır. Hətta bəzən miqrasiya üçün ciddi əsas olan digər hadisələrin də, məsələn, müharibə və terror hadisələrinin də əsasında, dolayısı ilə, iqtisadi səbəblər dayanır.

Beləliklə, miqrasiyanın Ravenşteyn qanunlarını qısa olaraq belə ifadə etmək olar: 1) miqrasiya əsasən qısa məsafələrdə baş verir; 2) miqrasiya mərhələlərlə baş verir; 3) uzunmüddətli miqrasiya şəhərlərə yönəlir; 4) hər bir miqrasiyanın əks istiqamətli nəticələri olur; 5) kənd əhalisi şəhər əhalisinə nisbətən daha çox miqrasiya edir; 6) ölkədaxili miqrasiyada qadınlar daha üstünlük təşkil edirlər; 7) miqrantların əsas hissəsi yaşlı əhalidir; 8) böyük yaşayış məskənləri təbii artıma nisbətən daha çox miqrasiyanın hesabına böyüyürlər; 9) miqrasiya iqtisadi inkişafla bağlı olaraq artır; 10) əsas miqrasiya axını kəndlərdən şəhərə yönəlib; 11) miqrasiyanın əsasən iqtisadi səbəblərlə bağlıdır.

Miqrasiyanın Ravenşteyn qanunlarını əsas götürərək miqrasiyanın əsas determinantları kimi 1) ölkələrarası məsafəni; 2) kənd əhalisinin orta gəlirləri ilə şəhər əhalisinin orta gəlirləri arasındakı fərqi; 3) ölkələrarası həyat keyfiyyəti arasındakı fərqləri; 4) ölkələrarası minimum əmək haqqı səviyyəsini; 5) təhsil və səhiyyə xərcləri arasındakı fərqləri; 6) təhsil və səhiyyə xidmətləri arasındakı fərqləri; 7) adambaşına ÜDM fərqlərini və s. götürmək olar.

Ravenşteyn qanunlarında miqrasiya üçün ölkələrarası məsafə deyiləndə yalnız fiziki məsafə nəzərdə tutulurdu. Lakin miqrasiya üçün hazırda "məsafə" anlayışı hazırda xeyli dəyişib. Burada ölkələrarası dil fərqləri, dini fərqlər, mədəniyyət fərqləri də müəyyən "məsafə" yaradır. Belə ki, iqtisadi amillərlə yanaşı dil, din və mədəniyyət yaxınlığı miqrasiya prosesinə ciddi təkan verə bilər. Müasir şəraitdə insanlar az hallarda yalnız fiziki və bioloji varlıqlarını qoruyub saxlamaq, təhlükəsiz mühitdə yaşamaq məqsədilə miqrasiya edirlər. Bu hallar yalnız müharibədən, terrordan qorunmaq və ya zorən ölkələrindən qovulan insanlara aiddir. Məsələn, 1989-cu ildə yüz minlərlə Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, 2003-cü il müharibəsi zamanı minlərlə insanın İraqdan didərgin düşməsi, 2011-ci ildən sonra yüz minlərlə

Suriyalının Türkiyəyə miqrasiyası iqtisadi amillərlə şərtlənmirdi və belə miqrasiya halları zamanı əsas məqsəd fiziki təhlükəsizliyin qorunmasıdır. Lakin "azad miqrasiya" zamanı miqrantlar daha çox iqtisadi amilləri əsas götürürlər və bu zaman getdikləri ölkədə cəmiyyətə inteqrasiya məsələləri mühüm əhəmiyyət daşıyır.

Miqrasiya proseslərinin determianatlarına əsaslanaraq ədəbiyyatda miqrasiyanın müxtəlif növlərini fərqləndirirlər: 1) əmək miqrasiyası (labour migration); 2) geri qayıtma ilə bağlı miqrasiya (return migration); 3) zəncirvari miqrasiya (chain migration); 4) qaçqınlıqla bağlı miqrasiya (asylum migration). Yuxarıda qeyd etdiyimiz kimi əmək miqrasiyası bir ölkədən bigər ölkəyə iş axtarmaq məqsədilə insanların axınıdır. Adətən belə miqrantlar arasında aşağı ixtisaslı işçilər üstünlük təşkil edir. Lakin bu qrupa yüksək ixtisaslı kadrları da əlavə edə bilərik. Belə miqrasiya "zəka axını" kimi qiymətləndirilə bilər. Əgər miqrant öz ölkəsinə qayıdaraq orada heç olmazsa bir il yaşayırsa, belə miqrasiya "geri qayıtma ilə bağlı miqrasiya" hesab olunur. Əgər miqrant ailə qurmaq məqsədilə bir ölkədən digərinə gedirsə və orada ailə qurursa, belə miqrasiya zəncirvari miqrasiya adlanır. Öz ölkəsindən müxtəlif səbəblərə görə qaçaraq digər ölkədə sığınacaq almaqla bağlı miqrasiya "qaçqınlıqla bağlı miqrasiya" adlanır. Bu dörd növ miqrasiyanın hər biri müxtəlif determinantlarla xarakterizə olunur və onların dövlət tənzimlənməsi mexanizmləri də fərqlidir.

Ədəbiyyatda miqrasiyanın növündən və səviyyəsindən asılı olaraq, müxtəlif miqrasiya nəzəriyyələri təklif edilir. Hammar və b. (1997), Faist və Faist (2000) miqrasiya nəzəriyyələrini mikro səviyyəli, makrosəviyyəli və mezosəviyyəli miqrasiyalar kimi üç qrupda təsnifəşdirirlər.

Miqrasiyanın iqtisadi determinantlarını əhatə edən nəzəriyyələr əsasən mikro- və makrosəviyyələri əhatə edir. İqtisadi ədəbiyyatda hələ keçən əsrin ortalarında və ikinci yarısında Levis (1954) miqrasiyanın klassik nəzəriyyəsini, Harris və Todoro (1975) miqrasiyanın neoklassik nəzəriyyəsini, Hart (1975) miqrasiyanın Keyns nəzəriyyəsini, Piore (1979) miqrasiyanın dual əmək bazarı nəzəriyyəsini inkişaf etdirmişlər. Mikrosəviyyəli miqrasiyanın izah edilməsinə yönələn nəzəriyyələr neo-klassik iqtisadi nəzəriyyə nöqteyi-nəzərdən Todoro (1976), "gözlənilən dəyər" nəzəriyyəsi nöqteyi-nəzərindən DeJong və Faucett (1981), miqrasiyanın yeni iqtisadi nəzəriyyəsi nöqteyi-nəzərindən Stark və Bloom (1984) tərəfindən inkişaf etdirilib.

Hagen-Zanker (2008) miqrasiya prosesini xarakterizə edən nəzəriyyələri bu prosesin mərhələlərinə əsasən iki növə bölür: 1) miqrasiyanın başlaması; 2) miqrasiyanın davamlılığı. Birinci növ nəzəriyyələr miqrasiyanın səbəblərini, ikinci növ nəzəriyyələr isə onun davamlılığını öyrənir. Miqrasiyanın başlamasını və onun səbəblərini öyrənən nəzəriyyələrə 1) neo-klassik makro-miqrasiya nəzəriyyəsi; 2) neo-klassik mikro-miqrasiya nəzəriyyəsi; 3) "miqrasiya system kimi" nəzəriyyəsi; 4) dünya sistemi nəzəriyyəsi; 5) dual əmək bazarı nəzəriyyəsi; 6) Lee tərəfindən hazırlanan "itələyib çıxarma"/ "dartıb gətirmə" amilləri; 7) davranış modelləri; 8) sosial sistemlər nəzəriyyəsi; 9) əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi daxildir. Miqrasiya prosesini xarakterizə edən nəzəriyyələrin ikinci növünə - "miqrasiyanın davamlılığı" növünə daxil olan nəzəriyyələrə isə 1) "miqrasiya sistem kimi" nəzəriyyəsi; 2) dünya sistemi nəzəriyyəsi; 3) sosial kapital nəzəriyyəsi; 4) institusional nəzəriyyə; 5) şəbəkə nəzəriyyəsi; 6) kumulyativ səbəbiyyət nəzəriyyəsi daxildir.

Nəticələr və müzakirə

Neoklassik miqrasiya nəzəriyyəsinə əsasən miqrasiyanın determinantları

Miqrasiya proseslərinin başlanmasını izah etməyə yönələn ilk nəzəriyyələrdən biri neoklassik nəzəriyyədir. Neoklassik nəzəriyyədə miqrasiya coğrafi yerləşmədən asılı olaraq əmək ehtiyatlarına tələb və təklif həcmləri arasındakı fərqlərin funksiyası kimi çıxış edir. Məsələn, əmək ehtiyatları nöqteyi-nəzərindən şəhərlə kənd yerləri arasındakı fərqlər bu çoğrafi ərazilər arasında miqrasiya yaradır. Yaxud hər hansı ölkədə əmək ehtiyatları digər ölkədən azdırsa, bu ölkəyə miqrasiya axını mümkündür. Bu nəzəriyyə XX əsrin ikinci yarısında iqtisadiyyatda makroiqtisadi nəzəriyyənin yaradılması ilə diqqəti cəlb etdi. Miqrasiyanın

neoklassik nəzəriyyəsinə əsasən əmək ehtiyatlarının tələb və təklifindəki çoğrafi fərqlər miqrasiya axınını yaradır. Harada ki əmək ehtiyatları kapitalla müqayisədə daha zəngindir, oradan kapitalın çox olduğu, lakin əməyin az olduğu ərazilərə miqrasiya baş verir. Çünki əmək ehtiyatlarının təklifinin az olduğu, lakin tələbin çox olduğu yerlərdə əmək haqqı yüksək olacaq və həyat şəraitinin yüksək olması miqrantları cəlb edəcək. Başqa cür ifadə etsək, miqrantlar əməyin ucuz olduğu ölkələrdən əməyin baha olduğu ölkələrə miqrasiya edirlər. Makroiqtisadiyyatın bu sadə nəticəsi miqrasiya ilə bağlı siyasətlərin hazırlanmasının əsasında dayanıb. Bu nəzəriyyəyə əsasən əmək miqrantlarının öz ölkələrinə göndərdikləri maliyyə miqrant ölkələrini emiqrasiyanı dəstəkləməyə sövq edir. Belə köçürmələr ölkədə gəlir bərabərsizliyinin aradan qaldırılmasında mühüm rol oynayır. Hesablamalar göstərir ki, miqrant köçürmələri birbaşa xarici investisiyalardan sonra öz həcminə görə ikinci yerdədir (Gülalıyev, 2018). Digər tərəfdən, əməyə tələb həcmi yüksək olan ölkələr miqrantlar vasitəsilə əməyin təklif həcmini artırmaqla istehsal həcmini genişləndirirlər. Neoklassik nəzəriyyəyə əsasən əmək miqrasiyası nəticəsində ölkələrarası əmək haqqı səviyyəsi bir-birinə yaxınlaşdıqca miqrasiya axını zəifləyir. Bu nəticə bir daha sübut edir ki, əmək miqrasiyasının başlanmasında əsas səbəb kimi məşğulluğun təmin edilməsi və əmək haqqı səviyyələri arasındakı fərqlər dayanır. Neoklassik miqrasiya nəzəriyyəsinin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu nəzəriyyə yalnız əmək bazarını nəzərə alır və digər bazarların miqrasiya axınlarına təsirini nəzərə alınmır. Bu mənada miqrasiya prosesi emiqrasiyanın baş verdiyi ölkədə yoxsulluğun və gəlir bərabərsizliyinin azaldılmasında, həmçinin əhali artımının yavaşımasında mühüm rol oynayır. Digər tərəfdən, neoklassik nəzəriyyə fərz edir ki, miqrantı qəbul edən ölkədə əməyin təklifi artdığından əmək haqqı səviyyəsi də getdikcə azala bilər və istehsalçılar daha aşağı ixtisaslı əməkdən istifadə etməyə meyilli olurlar. Əlbəttə, bu halda miqrantların sayı, həmçinin minimum əmək haqqı ilə bağlı qanunvericiliyin, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri mühüm əhəmiyyət daşıyır.

Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, miqrasiya haqqında qərar ayrıca fərd tərəfindən qəbul edilir. Bu nəzəriyyə əmək miqrasiyasının iqtisadi inkişafa təsirlərini izah edir. Lakin neoklassik nəzəriyyədə miqrasiyanın əsas səbəbi kimi əmək bazarlarının vəziyyəti, xüsusilə əmək haqları arasındakı fərqlər mühüm əhəmiyyət daşıdığından, bu nəzəriyyənin əksər hallarda inkişaf etməkdə olan ölkələrdən olan miqrasiya hallarına tətbiq etmək mümkün olmur. Çünki inkişaf etməkdə olan ölkələrdən miqrasiyanın səbəbləri arasında əmək miqrasiyası digər səbəblərlə bağlı miqrasiyadan daha azdır. Əmək miqrasiyasının əsasında könüllülük prinsipi dayandığı halda, inkişaf etməkdə olan ölkələrdən olan miqrasiyanın əsasında, əksər hallarda, məcburiyyət halları üstünlük təşkil edir.

Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi (ƏMYİN)

Miqrasiyanın səbəblərinin izah edilməsinə yönələn nəzəriyyələrdən biri də “Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi”dir. Bu nəzəriyyə neoklassik miqrasiya nəzəriyyəsindən fərqli olaraq, mikro səviyyəli miqrasiyanın, məsələn, ayrı-ayrı fərdlərin, həmçinin mezo səviyyəli miqrasiyanın, məsələn, ev təsərrüfatları səviyyəsində miqrasiyanın baş verməsi səbəblərinin öyrənilməsini qarşıya məqsəd qoyur. Lakin bu nəzəriyyə də miqrasiya ilə bağlı qərar qəbulunun fərdlərlə deyil, kollektivlə bağlı olduğunu əsas götürür. Lakin bu nəzəriyyə fərdin davranışının nəzərə alınmasını təklif edir. Ev təsərrüfatını təmsil edən kollektiv gələcək üçün maliyyə risklərinin azaldılmasını nəzərə alaraq, müəyyən müddət üçün qarantiyalı məşğulluğun və davamlı gəlirin toplanmasını istəyir. Bu halda gəlirlərin diversifikasiyasını təmin etmək məqsədilə, kollektiv öz üzvlərindən bir və ya bir neçə nəfərin miqrasiyasında maraqlı ola bilər. Belə əmək miqrasiyası zamanı qarşıya qoyulan məqsədə nail olduqdan sonra miqrant öz ölkəsinə geri qayıda bilər və bu, əksər hallarda baş verir. Azərbaycandan digər ölkələrə miqrasiya əsasən əmək miqrasiyasıdır və belə emiqrantların da əksəriyyəti maliyyə problemlərini həll etdikdən sonra geri qayıdırlar.

Əslində miqrasiyanın neoklassik nəzəriyyəsinin əsaslandığı determinantla (yəni “əmək

haqqı səviyyəsindəki fərqlər”) əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsinin əsaslandığı determinantın (yəni ev təsərrüfatının miqrasiya ilə bağlı davranışı) bir-birini nəinki inkar etmir, əksinə tamamlayır. Çünki ev təsərrüfatları onların üzvlərinin və ya bütünlükdə ailənin yeni iş axtarmaq məqsədilə xarici ölkəyə getməsi qərarını verəndə ölkələrarası həyat şəraitinə, gəlirlərə və digər amillərə xüsusi diqqət yetirirlər. Bu mənada “miqrasiyanın yeni iqtisadi nəzəriyyəsi” “miqrasiyanın neoklassik nəzəriyyəsi” ilə müqayisədə daha genişdir və daha çox determinantın nəzərə alınmasını zəruri edir.

Miqrasiyanın Dual (ikiqat) Əmək bazarı nəzəriyyəsi (DƏBN)

Piore (1979) tərəfindən inkişaf etdirilən miqrasiyanın ikiqat əmək bazarı nəzəriyyəsi neoklassik və ƏMYİN nəzəriyyəsindən fərqli olaraq miqrasiyaya ayrı-ayrı fərdlərin davranışı kimi deyil, sənaye sektoru inkişaf edən ölkələrdə işçi qüvvəsinə olan daxili tələbin nəticəsi kimi yanaşır. Buna görə də miqrasiyanın səbəbi kimi emiqrantın ölkəsinə xas olan “itələyici” qüvvəni deyil, miqrantın gəldiyi ölkədəki “cəlbedici” qüvvəni əsas götürmək lazımdır. Miqrantın ölkəsinə xas olan “itələyici” qüvvə, daha doğrusu, miqrasiyanın determinantı aşağı səviyyəli əmək haqqı və yüksək səviyyəli işsizlik ola bilər. Lakin miqrantı qəbul edən ölkədə “cəlbedici” qüvvə işçi qüvvəsinə bu ölkədəki ehtiyacdır və miqrantlar bu ehtiyacı təmin edə bilərlər. Bu nəzəriyyə miqrantı “cəlb edən” inkişaf etmiş ölkənin miqrantın aid olduğu ölkədən üstünlüklərini əsas determinant kimi qəbul edir. Bunlar miqrantın ölkəsindəki struktur inflyasiyası, motivasiya problemləri, iqtisadi dualizm və demokrafik vəziyyətdir. Beləliklə, DƏBN nəzəriyyəsində miqrasiyanın əsas determinantı kimi inkişaf etmiş ölkələrdə işçi qüvvəsinə olan tələbin yüksək olmasıdır. Bu nəzəriyyəyə görə miqrasiya heç də əmək haqqlarındakı fərqlərlə və ya ev təsərrüfatlarının öz maddi vəziyyətlərini yaxşılaşdırmaq, həmçinin gələcəkdə maliyyə risklərini azaltmaq istəyi ilə bağlı deyil.

Şəbəkə nəzəriyyəsi

Bəzi tədqiqatçılar, məsələn, De Haas (2010), Arango (2000) belə hesab edirlər ki, yuxarıda qeyd etdiyimiz nəzəriyyələrin heç biri miqrasiyanın səbəbini tam şəkildə əhatə etmir. Onlar əsas diqqətin milli dövlətlərə coğrafi yaxınlığa, sosial şəbəkələrin əlçatanlığına, tarixi və mədəni amillərə yönəldilməsini təklif edirlər. Belə yanaşmaya əsasən, miqrasiyaya şəbəkəsi sosial kapital konsepsiyası ilə bağlıdır və müasir anlayışdır. Arango (2000) miqrasiya şəbəkəsinə şəxsiyyətlərarası əlaqələrin məcmusu kimi yanaşır. Belə əlaqələr məcmusu miqrantları öz ailəsi ilə, dostları və yaxınları ilə birləşdirir. Miqrasiya şəbəkəsi insanların yerdəyişməsi zamanı xərcləri və riskləri azaldır və miqrasiya zamanı gəlirlərini artırır.

Nəticə / *Conclusion*

Miqrasiya prosesini iqtisadi nöqteyi-nəzərdən öyrənən əsas nəzəriyyələrin müqayisəli təhlili deməyə əsas verir ki, nəzəriyyələrin əsas fərqləndirici cəhəti onların əsaslandığı determinantlar arasındakı fərqlərdir. Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, əsas determinantlar kimi miqrantların sayı, minimum əmək haqqı ilə bağlı qanunvericiliyin tələbləri, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri götürülə bilər. Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi determinant olaraq əmək haqqı səviyyələri arasındakı fərqi götürür.

İstifadə edilmiş ədəbiyyat / *References*

Arango, J. (2000). Explaining migration: a critical view. International social science journal, 52(165), pp. 283-296

De Jong, G. F., & Fawcett, J. T. (1981). Motivation for migration: An assessment and a value-expectancy research model. In G. F. De Jong & R. W. Gardner (Eds.), Migration decision

making: Multidisciplinary approaches to microlevel studies in developed and developing countries (pp. 13–58). New York: Pergamon Press.

De Haas, H. (2010b). Migration and development: a theoretical perspective1. International migration review, 44(1), pp. 227-264

Faist, T., & Faist, T. (2000). The volume and dynamics of international migration and transnational social spaces. Oxford: Oxford University Press

Gülalıyev Mayıs, (2018). Xarici iqtisadi əlaqələr: tənzimləmə ilə liberallığın tarazlığı. (Yenidən işlənmiş ikinci nəşr). “Elm və bilik” nəşriyyatı, Bakı, 2018, 382 səh.

Hammar, T., Brochmann, G., Tamas, K., & Faist, T. (1997). International Migration Immobility and Development: Multidisciplinary Perspectives. London: Bloomsbury Academic

Harris, J. R., & Todaro, M. P. (1970). Migration, unemployment and development: a two-sector analysis. The American economic review, pp. 126-142

Hart R.A., (1975). İnterregional economic migration: some theoretical considerations (part II). Journal of Regional Science. Volume15, Issue3 December 1975 Pages 289-300. https://doi.org/10.1111/j.1467-9787.1975.tb00932.x

Jennissen, R. P. W. (2004). Macro-economic determinants of international migration in Europe. Amsterdam: Rozenberg Publishers

Lewis, W. A. (1954). Economic Development with Unlimited Supplies of Labour. Retrieved from http://www.globelicsacademy.net/2008/2008_lectures/lewis%20unlimited%20labor% 20supply%201954.pdf

Massey, D. S., Arango, J., Hugo, G., Kouaouci, A., Pellegrino, A., & Taylor, J. E. (1993). Theories of international migration: a review and appraisal. Population and development review, 19 (3), pp. 431- 466

Piore, M., Birds of Passage. Migrant Labor and Industrial Societies, Cambridge University Press, Cambridge, 1979

Ravenstein E.G. The Laws of Migration // Journal of the Statistical Society of London, Vol. 48, No. 2. (June, 1885), pp. 167–235

Stark O. and Bloom D, (1985). The New Economics of Labor Migration. Vol. 75, No. 2, Papers and Proceedings of the Ninety-Seventh Annual Meeting of the American Economic Association (May, 1985), pp. 173-178

Todaro, M. P. (1976). Internal Migration in Developing Countries: A Survey. In R.A. Easterline (Ed.), Population and Economic Change in Developing Countries (pp.361-402). Chicago: University of Chicago Press

Основные детерминанты миграции

Акифа Агаярова
старший научный сотрудник, Институт Экономики НАНА,
Отдел «Демографии и проблем воспроизводства труда». Азербайджан.
E-mail: aqayarova.akifa@yandex.ru

Резюме. В статье проводится сравнительный анализ основных теорий, изучающих миграционный процесс с экономической точки зрения, и детерминанты, на которых эти теории основаны. Согласно неоклассической теории миграции, основными детерминантами являются количество мигрантов, требования законодательства о минимальной заработной плате, а также требования законодательства о трудовой миграции в стране. Новая экономическая теория трудовой миграции рассматривает разницу в уровне заработной платы как определяющую.

Ключевые слова: миграция, миграционный поток, мигранты, детерминанты миграции.